*Müasir Azərbaycan tarixinin "qızıl dövrü" dövlətçiliyin keşiyində qətiyyətlə dayanan İlham Əliyev fenomeni ilə birbaşa bağlıdır və lider şəxsiyyətinin müqayisəolunmaz böyüklüyü onun fəaliyyətinin geniş spektri ilə əlaqəlidir. 2003-cü ildə "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən cənab İlham Əliyev əməli addımları ilə təkcə ölkə ərazisində deyil, vətənin hüdudlarından kənarda da yaşayan ümumdünya azərbaycanlılarının Lideri oldu.*



# Dövlət siyasətinin müasir modeli: Liderlik fəlsəfəsi

Bütün parametrləri ilə örnəyə çevrilən şəxsiyyət, eyni zamanda görkəmli dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Mən Ona özüm qədər inanıram" düşüncəsindəki etimadı müdrikliklə doğrultdu. Onun başlatdığı həyati vacib əhəmiyyətli işləri, müasir dövlət idarəçilik fəlsəfəsini reallaşdıra bildi. Bu baxımdan, İlham Əliyevin Vətən qarşısında xidməti və azərbaycançılıq ideologiyasının bütövləşdirilməsi, irsimizin qorunması, gələcək nəsillərə ötürülməsi, dünyada milli cizgilərimizin, kimliyimizin təbliği baxımından mübarizliyi, əzmkarlığı və lider olaraq təəssübkeşliyi əsl örnək hesab edilir.

"Liderlik, əlbəttə ki, böyük bir məsuliyyətdir və ən önəmlisi ondan ibarətdir ki, lider həmişə öz xalqına, öz əhalisinə münasibətdə ədalətli olmalıdır. Heç vaxt xalqına yalan danışmamalısan və xalq bunu yüksək qiymətləndirəcək. Bəzən müəyyən siyasi səbəblər üzündən hakimiyyətə can atan liderlər çoxlu vədlər verir və sonra onları yerinə yetirmir və bu da məyusluğa, inamsızlığa gətirib çıxarır. Bu, dünyanın müxtəlif yerlərində siyasi böhrana gətirib çıxarır". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 20-də Davosda Çinin CGTN (China Global Television Network) telekanalına müsahibəsində deyib.

Dövlət başçısı qeyd edib ki, iyirmi ildən artıq müddət ərzində həmişə Azərbaycan xalqına həqiqəti söyləmişəm. Bu həqiqətin müsbət və ya mənfi olmasından asılı olmayaraq. Həmişə xalqıma biz ədaləti bərpa edəcəyik söyləmişəm və xalqım da mənə inanıb. 17 il hakimiyyətdə olandan sonra biz, nəhayət, vəd etdiklərimizi yerinə yetirdik və suverenliyimizi, ərazi bütövlüyünü və ləyaqətimizi bərpa etdik. Prezident vurğulayıb: "Beləliklə, icitmaiyyətin dəstəyini əldə etmək istəyən liderlərə məsləhətim o olardı ki, həmişə həqiqəti söyləyin və beynəlxalq təzyiqdən, beynəlxalq mediadan asılı olmayaraq, haqqınızda nə dediklərindən, sizi necə adlandırdıqlarından, sizi necə təhqir etmələrindən asılı olmayaraq ölkəniz üçün doğru olanı edin. Beləliklə, siz özünüz və ölkəniz uğur qazanmış olacaqsınız".

Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi illər ərzində nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara söykənən daxili və xarici siyasəti nəticəsində ölkəmiz güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlətə çevrilib. Dövlət siyasətinin müasir modelini yaradan cənab İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısının yerinə yetirilməsinə nail olmuşdur. Azərbaycan suveren dövlət olaraq müstəqil şəkildə uğurla daxili və xarici siyasət aparır. Müasir Azərbaycanın güclənməsinə, milli-mənəvi dəyərlərimizin ən yüksək səviyyədə qorunmasına xidmət edən uğurlarımızın əsas şərti Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətdir. Dünyada tolerantlıq məkanı kimi tanınan Azərbaycan məhz Prezident İlham Əliyevin xidmətləri sayəsində mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı kimi də şöhrət tapdı.

Prezident İlham Əliyev hər zaman xalqına arxalanır, ondan güc alır və bunun üçün daim xalqının yanındadır. Bu birlik, həmrəylik, Prezidentinə güvən, inam 44 günlük müharibədə tarixi Zəfərimizə yol açdı. "Dəmir yumruq" müharibənin rəmzinə çevrildi. Ermənistanın yeni işğalçılıq planlarına, növbəti hərbi təcavüz cəhdinə və ardıcıl təxribatlarına cavab olaraq 2020-ci il sentyabrın 27-də başlamış 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunu darmadağın etmiş və tarixi Zəfər qazanmışdır. Azərbaycan öz torpaqlarını 30 illik işğaldan azad edərək ərazi bütövlüyünün bərpasına və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə nail olmuşdur. Qarşı tərəf kapitulyasiya aktını imzalamağa məcbur oldu. 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusu bölmələrinin apardığı birgünlük lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmizin ərazi bütövlüyü, suverenliyi tam bərpa edildi.

Ötən il fevralın 7-də keçirilən Zəfər seçkiləri kimi tarixə yazılan siyasi kampaniya, eyni zamanda cənab İlham Əliyevin son 21 ildə gördüyü işlərin, qazanılan uğurların təqdimatı oldu. "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi" söyləyən cənab İlham Əliyev onu da bildirdi ki, əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun Liderinə göstərdiyi inam və vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, öz taleyimizi özümüz həll edirik. 2024-cü il fevralın 14-də Milli Məclisdə Azərbaycan Prezidenti İlham Əliyev andiçmə mərasimində ölkəmizin daxili və xarici siyasəti ilə bağlı hazırkı durum və gələcək illərdə tutacağı xətt ilə bağlı geniş nitq söyləyib. "Güclü iqtisadiyyat, güclü ordu, daxili sabitlik, xalq-iqtidar birliyi xarici siyasətimizin əsas amilləridir", növbəti illərin əsas prioritetləri kimi qeyd edilib. Azərbaycan Prezidenti neft-qaz hasilatı, "yaşıl enerji" ilə yanaşı, qeyri-neft sektorunun da sürətli inkişafından danışıb.













Yeni reallıqlar yaradan Azərbaycan dinamik inkişaf dövrünü yaşayır. 44 günlük Vətən müharibəsində qazandığımız şanlı Zəfərdən sonra Azərbaycan yaranmış yeni reallıqlar fonunda gələcək inkişaf strategiyasını dövrün tələblərinə uyğun olaraq müəyyənləşdirib. Prezidentin uzaqgörən qərarları ilə Azərbaycan Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir irimiqyaslı layihələri ilə müasir dünyamızda etibarlı tərəfdaşlardan birinə çevrilib. Bütün sahələrdə əldə olunan nailiyyətlərin kökündə müdrik siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Reallaşan kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləri sırasında olan amillərdir. Azərbaycanın dinamik inkişafının göstəriciləri sırasında ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafında bir sıra önəmli addımlar atılıb. Dövlət başçısının dəfələrlə bəyan etdiyi kimi, ölkədə həyata keçirilən siyasətin mərkəzində, məhz Azərbaycan vətəndaşları, onların maraqları, dövlət siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Ölkəmizdə sosial sahədə həyata keçirilən islahatlar miqyasına görə heç bir ölkədə müşahidə olunmur. Şəhid ailələrinə, müharibə veteranlarına, əlillərə dövlətimizin diqqət və qayğısı davamlıdır.

Hər bir liderin ali keyfiyyəti, yüksək dəyəri rəhbərlik etdiyi dövlətə xidməti və xalqa faydalılığı, ilk növbədə, vətənə sədaqəti, milli adət-ənənələrə sadiqliyi, vətəndaşlara hörməti, məhəbbəti, diqqəti və qayğısı ilə ölçülür. Liderlik keyfiyyəti və xarizması zamanı qabaqlamaq, düzgün və vaxtında təhlil etmə bacarığı, baş vermiş hər hansısa bir situasiya anında çevik tədbir görmə məharətidir.

Dövlət siyasətinin müasir modelini yaradan Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik məharəti, qətiyyəti və milli maraqlara əsaslanan daxili və xarici siyasəti nəticəsində bütün sferalarda əldə olunan nailiyyətlərin kökündə müdrik siyasət, möhkəm siyasi iradə və xalq-dövlət birliyinin real əsasları dayanır. Ötən 21 illik tariximiz Azərbaycanın böyük bir salnaməsini yaratmış, güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlət kimi öz liderliyini təsdiqləmişdir. İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli təqdim etdi. Yəni məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, pozitiv, milli məqsədlərə xidmət edən siyasi realizmə söykənən fəaliyyət nümunəsi gətirdi.

Ölkəmizdə keçirilən bütün mötəbər tədbirlər Azərbaycan Prezidenti İlham Əliyevin nüfuzu, müdrik və qətiyyətli liderliyinin gücü hesabına baş tutub. Tədbirlərin mövzuları, əhəmiyyəti təkcə ölkəmiz üçün nəzərdə tutulmur, dünyanın mövcud durumunun təqdimatı olur. Prezidentin tədbirlərdəki çıxışlarında səsləndirilən çağırışlarda bəşəriyyətin qarşılaşdığı problemlərin fəlsəfəsi açılır, sülhə, əmin-amanlığa yeni töhfələr verilir. Bakıda keçirilən "Humanitar forumlar" və COP29 konfransı buna sübutdur. COP29 konfransında iqlim dəyişmələri ilə bağlı elmi dövriyyəyə yeni paradiqmalar daxil edildi. Bu konfransa mane olmaq istəyənlər Prezidentin substansional liderliyini görəndən sonra geri çəkildilər. Ölkəmizin dünyada geniş auditoriyaya malik nüfuzlu "Eurovision" mahnı müsabiqəsində qələbəsi, respublikamızın 155 dövlətin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi qürur doğurur. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Davos İqtisadi Forumuna, I Cənubi Qafqaz Forumuna ev sahibliyi etməsi, habelə 2015-ci ildə I Avropa Oyunlarının Bakıda keçirilməsi dövlətimizin uğurudur. Azərbaycan Prezidentinin dünyanın müxtəlif ölkələrində keçirilən mötəbər tədbirlərdəki çıxışları məzmununa görə xüsusilə seçilir, səsləndirdiyi fikirlər ətrafında diskussiyalar aparılır.

Ən müvəffəqiyyətli dövlətlər, güclü liderlərin idarə etdiyi dövlətlərdir. Güclü liderlər vizyonları, iradələri və effektiv idarəetmə təcrübələri ilə dövlətin vətəndaşlarının maraqlarını qorumaq və inkişaf etdirmək üçün effektiv strategiyalar tətbiq edirlər. Bu liderlik keyfiyyətləri dövlət siyasətinin müxtəlif istiqamətləri üzrə, o cümlədən siyasi, iqtisadi, sosial və mədəni sahələrdə istifadə olunaraq dövlətin gücünü və bu gücün effektivliyini təmin edir. Güclü dövlət güclü liderliyin məntiqi nəticəsidir. Müdrik tədbirlər sayəsində dövlətin maliyyə stabilliyinin təmininə və iqtisadiyyatının sürətli inkişafına yol açır, sosial problemlərin həllində və beynəlxalq müstəvidə mövqeyini möhkəmləndirir. 2003-cü ildə etdiyi seçimdə yanılmadığını, cənab İlham Əliyevin ətrafında sıx birləşərək xalq gələcəyə inamla irəlilədiyini nümayiş etdirir. Bu illər ərzində güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın qüdrətinə çevrildi. Cənab İlham Əliyev Azərbaycan siyasi sisteminə rasional siyasi davranış modeli, məntiqi mühakimələrə və analitik təhlilə əsaslanan, mütərəqqi, milli məqsədlərə xidmət edən, siyasi realizmə söykənən fəaliyyət nümunəsi gətirdi. Prezident İlham Əliyev ölkəyə rəhbərliyinin 21 ili ərzində həm də siyasi fəaliyyətində "güclü iqtisadiyyat-güclü dövlət" prinsipinə əsaslanıb.

Bu gün Azərbaycanda xalq-iqtidar birliyi islahatların, daxili və xarici siyasət kursunun səmərəliliyini təmin edən əhəmiyyətli strateji faktor kimi çıxış edir. Eyni zamanda mütəmadi surətdə həyata keçirilən islahatlar mövcud inkişafı sürətləndirməklə yanaşı, yeni perspektivləri müəyyənləşdirilməsini şərtləndirir. Ölkə iqtisadiyyatının inkişafı üçün mütəmadi surətdə reallaşdırılan praqmatik islahatlar modeli formalaşdırılıb ki, bu, bütövlükdə milli inkişafa təkan verən əhəmiyyətli amildir. Eyni zamanda güclü iqtisadi inkişafa əsaslanan bir sıra tədbirlərin görülməsi Azərbaycanın milli tərəqqisini sürətləndirən, milli gücünü artıran başlıca strateji komponent qismində çıxış edir.

**Mustafa KAMAL,**
**"Respublika".**